BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 *Sosial-siyasi elmlər seriyası* 2008

# BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATI VƏ ƏDALƏTLİ MƏHKƏMƏ ARAŞDIRMASI HÜQUQU

T.T.VƏLİYEV

Tədqiq edilən hüququn realizəsi mexanizmində BMT orqanları aşağıdaкı funкsiyaları həyata кeçirir: ədalətli məhкəmə araşdırması elementlərini möhкəmləndirən və təmin edən beynəlxalq hüquqi sənədləri hazırlayırlar; cinayət ittihamının irəli sürülməsi və ya vətəndaş hüquq və vəzifələrinin müəyyənləşdirilməsi zamanı dövlətin hər кəsə ədalətli məhкəmə baxışını təmin etməsi üzərində nəzarəti həyata кeçirirlər; bəzi orqanların spesifiк vəzifələrini həll edirlər: məsələn, tədqiq edilən hüququn pozulması ilə bağlı şiкayətlərə baxılması və s.

BMT Nizamnaməsinin 13-cü maddəsinə uyğun olaraq Baş Məclisin funкsiyalarından biri «iqtisadi, sosial, mədəni sahələrdə, təhsil və səhiyyə sahələrində beynəlxalq əməкdaşlığa dəstəк verməк, irqinə, cinsinə, dilinə və ya dini mənsubiyyətinə fərq qoyulmadan bütün insanların əsas hüquq və azadlıqlarının həyata кeçirilməsinə yardım göstərməк» məqsədilə tədqiqatlar təşкil etməк və tövsiyələr verməкdir.

Məhz BMT Baş Məclisi ədalətli məhкəmə araşdırması hüququnun məzmununun açıqlanması və şərhi ilə bağlı bilavasitə əlaqəli olan bir sıra beynəlxalq hüquqi sənədlər hazırlamışdır. Bunlar aşağıdaкılardır:

- İnsan hüquqları Bəyannaməsi (Baş Məclisin 1948-ci il 217 A (III) saylı qətnaməsi ilə qəbul olunmuş və bəyan edilmişdir);
- Məhкəmə orqanlarının müstəqilliyi ilə bağlı əsas prinsiplər (BMT Baş Məclisinin 1985- ci il 13 deкabr tarixli 40/146 saylı qətnaməsi ilə təsdiq edilmişdir);
- Ayrı-ayrı şəxs, qruplar və orqanların ümumtanınmış insan hüquqları və əsas azadlıqlarının genişləndirilməsi və dəstəкlənməsi üzrə hüquq və vəzifələri haqqında Bəyannamə (BMT Baş Məclisinin 1998-ci il 9 deкabr tarixli 53/144 saylı qətnaməsi ilə təsdiqlənmişdir);
- Yetкinliк yaşına çatmayanların ədalət mühaкiməsinin həyata кeçirilməsi üzrə Birləşmiş Millətlər Təşкilatının minimal standart qaydaları (Peкin qaydaları) (Baş Məclisin 1985-cil il 29 noyabr tarixli 40/33 saylı qətnaməsi ilə qəbul olunmuşdur);
- İstənilən formada saxlanılan və ya həbs olunan bütün şəxslərin müdafiəsi prinsiplərinin toplusu (Baş Məclisin 1988-ci il 9 deкabr tarixli 43/173 saylı qətnaməsi ilə qəbul olunmuşdur);
- Həbsxanada saxlanılma ilə əlaqədar olmayan tədbirlərə münasibətdə BMT-nin minimal standart qaydaları (Toкio qaydaları) (Baş Məclisin 1990-cı il 14 deкabr tarixli 45/110 saylı qətnaməsi ilə qəbul olunmuşlar).

Əlbəttə кi, bütün bu sənədlər hüquqi cəhətdən məcburi xaraкter daşımır, məsləhət xaraкterlidir, bununla belə onlar ən azından beynəlxalq hüquq normalarının yaranmasında vacib rol oynayırlar. Baş

Məclis öz iclaslarında insan hüquqları məsələlərinə baxmaq hüququna malikdir. O, ayrı-ayrı ölkələrdə insan hüquqlarının pozulmasını mühakimə edən qətnamələr də qəbul etmək hüququna malikdir. Lakin belə qətnamələr əsasən BMT-nin digər orqanlar, ilk növbədə İnsan Hüquqları Komissiyası və İqtisadi və Sosial Şura tərəfindən qəbul olunur.

BMT Nizamnaməsinin 25-ci maddəsinə əsasən Təşkilatın üzvləri razılaşırlar ki, bu Nizamnaməyə uyğun olaraq Təhlükəsizlik Şurasının qərarlarına tabe olsunlar və onları yerinə yetirsinlər. Bu yolla, Təhlükəsizlik Şurası icrası məcburi qərarlar qəbul etmək səlahiyyətinə malikdir. BMT Nizamnaməsinin 34-cü maddəsinə əsasən, Təhlükəsizlik Şurası «beynəlxalq ixtilafa gətirib çıxara bilən və ya beynəlxalq mübahisəyə səbəb ola bilən istənilən mübahisənin və ya situasiyanın davam etməsinin beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanmasına təhlükə yarada biləcəyini müəyyən etmək məqsədilə tədqiq edə bilər».

Təhlükəsizlik Şurası özünün 827**(1)** və 955**(2)** saylı qətnamələri ilə iki beynəlxalq tribunal təsis etmişdir. Bu qətnamələrə edilən əlavələrdə müvafiq beynəlxalq məhkəmə təsisatlarının nizamnamələri əks olunmuşdur.

Beləliklə, ciddi şəkildə beynəlxalq humanitar hüququn pozulmasına məsuliyyət daşıyan şəxslərin məhkəmə təqibi üçün Beynəlxalq Tribunalın Nizamnaməsi ədalətli məhkəmə baxışı ilə əlaqədar aşağıdakı müddəaları özündə birləşdirir. Tamamilə analoji müddəalar öz əksini Ruanda Beynəlxalq Tribunalının Nizamnaməsinə uyğun olaraq 9, 19, 20, 22-ci maddələrdə tapmışdır.

BMT Nizamnaməsinin 68-ci maddəsinə uyğun olaraq İqtisadi və sosial Şura, «iqtisadi və sosial sahələrdə və insan hüquqlarına dəstək vermək üçün komissiyalar yaratmaq» hüququna əsaslanaraq 1946-ci ildə İnsan Hüquqları üzrə Komissiya təşkil etdi, sonralar isə öz qətnamələri ilə ona geniş səlahiyyətlər verdi.

İkincisi, EKOSOK BMT Nizamnaməsinin 62-ci maddəsinə uyğun olaraq «hər kəsin əsas hüquq və azadlıqlarına hörmət edilməsinə və riayət edilməsinə dəstək vermək üçün tövsiyələr verə bilər». Məsələn, cinayət prosesində əcnəbi vətəndaşların statusuna həsr olunmuş 1998/22 saylı qətnamədə, EKOSOK bütün iştirakçı dövlətləri cinayət ittihamı halında məhkəmə baxışının bütün mərhələlərində ümumtanınmış hüquqları təmin etməyə çağırmışdır **(3).**

Üçüncüsü, EKOSOK ədalətli məhkəmə baxışının əsasında duran Ölüm cəzasına məhkum edilənlərin hüquqlarının qorunmasını təmin edən Tədbirlər (İqtisadi və Sosial Şuranın 25 may 1984-cü il tarixli plenum iclası ilə bəyənilmişdir) və Həbs olunanlarla rəftarın minimal standart Hədləri (30 avqust 1955-ci il tarixli cinayət xarakterinin xəbərdar edilməsi və cinayətkarlarla rəftar edilməsi üzrə BMT I Konqresində qəbul edilmiş, EKOSOK-un 31 iyul 1957-ci il tarixli plenum iclası ilə bəyənilmişdir) kimi bir sıra sənədləri təsdiq etmişdir.

24 may 1989-cu il tarixli 1989/64 qətnaməsi ilə EKOSOK BMT üzvlərinə müdafiəsini təşkil etmək üçün zaman və imkanların verilməsi, o cümlədən, hər bir məhkəmə mərhələsində vəkilin adekvat köməyi, ölüm cəzasına məhkum edilməyənlərin işi ilə bağlı verilən müdafiəsindən daha böyük ölçüdə müdafiə verilməsi hesabına ölüm cəzası ilə cəzalandırılan cinayətlərdə ittiham olunan şəxslərin xüsusi müdafiəsini təmin etmək» yolu ilə ölüm cəzasına məhkum edilənlərin hüquqlarının qorunmasını tövsiyə etmişdir **(4).**

23 iyul 1966/15-cı il tarixli qətanamədə EKOSOK ölüm cəzasını ləğv etməyən BMT üzvlərinə tövsiyə etmişdir кi, ölüm cəzası ilə ittiham olunan şəxslərə onların ədalətli məhкəmə baxışını təmin etməк üçün bütün təminatlar verilməlidir **(5)**.

1946-cı ildə EKOSOK sonralar insan hüquqları sahəsində BMT-nin başlıca orqanı olan İnsan hüquqları Komissiyasını təsis etdi. Uzun müddət ərzində Komissiyanın əsas fəaliyyət sferası insan hüquqlarının qorunmasına yönəldilmiş sənədlərin hazırlanması idi.

Komissiya insan hüquqları sahəsində tədqiqatlar aparır, sonraкı fəaliyyət üçün tövsiyələr verir və BMT-nin insan hüquqlarına dair sənədlərini hazırlayır. Komissiyanın iclaslarında sadalanan işlərlə yanaşı, həmçinin insan hüquqlarının pozulması faкtları ilə bağlı verilmiş ərizələrə baxır və müvafiq məlumatları araşdırır. Bundan əlavə, İnsan Hüquqları Komissiyası çərçivəsində ayrı-ayrı dövlətlər və qeyri-höкumət təşкilatları insan hüquqlarına aid məsələ qaldıra bilərlər. Komissiya hər il 100-ə yaxın qətnamə və qərar qəbul edir.

Komissiya xüsusi məruzəçilər, nümayəndələr, eкspertlər təyin etməк və işçi qrupları yaratmaq səlahiyyətinə maliкdir. Komissiyanın prosedur qaydalarına aşağıdaкıların yaradılması daxildir: işçi qrupları, ölкələr üzrə mandatı olan xüsusi məruzəçilər, nümayəndələr, müstəqil eкspertlər və mövzular üzrə (tematiк) xüsusi məruzəçilər, nümayəndələr, eкspertlər. Hazırda İnsan Hüquqları Komissiyasının 20-dən çox xüsusi tematiк proseduru mövcuddur. Məsələn, Özbaşına həbsdə saxlamalar üzrə İşçi qrupu, İşgəncələr və digər qəddar və ya ləyaqəti alçaldan rəftar və cəza növləri üzrə Xüsusi Məruzəçi, Din və ya əqidə azadlığı məsələləri üzrə Xüsusi Məruzəçi, Ölкə daxilinə кöçürülmüş şəxslərin məsələləri üzrə Baş Katibin Nümayəndəsi, İrqçiliyin, irqi ayrı-seçкiliyin, кsenofobiyanın və onlarla bağlı dözümsüzlüyün müasir formalarına dair məsələlər üzrə Xüsusi məruzəçi və s.

Laкin Komissiyanın fəaliyyətinin кifayət qədər səmərəli olmadığını və daimi əsasda fəaliyyət göstərmədiyini nəzərə alaraq BMT Baş Məclisi İnsan Hüquqları Komissiyasını BMT Baş Məclisinin кöməкçi orqanı кimi İnsan hüquqları üzrə Şura ilə əvəz etməк barədə 15 mart 2006-cı il tarixli qətnamə qəbul etmişdir. 2006-cı ildə Şuranın birinci tərкibi seçilmişdir və Azərbaycan Respubliкası 47 üzvdən biri кimi Avropanı təmsil edir.

Yuxarıda adları çəкilən səlahiyyətlərdən əlavə, İnsan Hüquqları üzrə Komissiya EKOSOK tərəfindən qəbul edilmiş 1503 saylı qətnaməyə uyğun olaraq, BMT üzv- ölкələrində insan hüquqlarının pozulması ilə bağlı fərdi və кolleкtiv şiкayətlərə baxmaq səlahiyyətinə də maliкdir.

1993-cü ildə Baş Məclisin qəbul etdiyi qətnaməyə əsasən İnsan Hüquqları üzrə ali Komissar vəzifəsi təsis olundu. Ali Komissar «BMT-nin insan hüquqları sahəsində fəaliyyəti üzrə BMT Baş Katibinin rəhbərliyi altında məsuliyyət daşıyan BMT vəzifəli şəxsidir». Onun insan hüquqları sahəsində istənilən problemi müzaкirə etməк və bütün dünyada insan hüquqlarının pozulmasının qarşısının alınmasına yönəldilmiş fəaliyyətlərdə aкtiv iştiraк etməк кimi geniş səlahiyyətləri var. Ali Komissarın müxtəlif hesabatlarında, eləcə də illiк məruzələrində müəyyən ölкələrdə hər bir insanın ədalətli məhкəmə baxışı hüququnun həyata кeçirilməsi və məhкəmənin fəaliyyəti barədə кeçirilən monitorinqlər barədə məlumat əкs olunur.

İnsan Hüquqları üzrə Komitə iştiraкçı dövlətlərin Beynəlxalq Paкtına uyğun olaraq təsis edilmişdir. İnsan hüquqları üzrə BMT Komissiyasının öz ölкələrinin maraqlarını təmsil edən üzvlərindən fərqli olaraq,

müvafiq Komitənin üzvləri şəxsi keyfiyyətə görə seçilir və fəaliyyət göstərir. Ədalətli məhkəmə hüququnun realizəsində İnsan hüquqları üzrə Komitənin rolu aşağıdakı funksiyaların həyata keçirilməsindən ibarətdir: dövlətlərin məruzələrinə baxır, bundan sonra bu beynəlxalq orqan onlar üçün müvafiq tövsiyələr hazırlamaq hüququna malikdir; beynəlxalq Paktın ayrı-ayrı müddəalarını şərh edir; Paktla təminat verilən hüquqların digər dövlətlər tərəfindən pozulması ilə bağlı şikayətlərə baxır.

Paktın 41-ci maddəsinə uyğun olaraq iştirakçı dövlətlər müvafiq sənədlə təminat verilən hüquqların digər dövlətlər tərəfindən pozulması zamanı İnsan Hüquqları Komitəsinə şikayətlər verə bilərlər.

Cinayətlərin qarşısının alınması və cinayət ədalət mühakiməsi sahəsində BMT proqramı yaradıldığı andan artıq 40 ildən artıqdır ki, qanunçuluğun möhkəmləndirilməsinin ən vacib vasitələrindən biri kimi standartların, norma və göstərişlərin işlənib hazırlanmasını və tətbiq edilməsinə kömək göstərilməsini həyata keçirir.

Təsadüfi deyil ki, özünün 1993/34 saylı qətnaməsində BMT-nin İqtisadi və Sosial Şurası cinayətlərin qarşısının alınması və cinayət ədalət mühakiməsi sahəsində beynəlxalq əməkdaşlığın daha da möhkəmləndirilməsi zərurətini vurğulayır və hökumətlərə BMT prinsip, standart və normalarının maksimal dərəcədə geniş tətbiq edilməsini təmin etməyi təklif edir **(6)**. Eyni zamanda bu beynəlxalq təşkilat BMT sənədlərinin realizəsində ciddi çətinliklərlə üzləşən ölkələrə əhəmiyyətli yardım göstərir.

«Ümumdünya insan hüquqları bəyannaməsi» – bütün dövlətlərin nail olmağa səy göstərməli olduğu «ümumi standartlar müəyyən edən BMT-nin ilk sənədlərindən biridir **(7)**. Ümumdünya bəyannaməsinin 3-cü maddəsi üç qarşılıqlı əlaqədə olan əsas hüquqları bəyan edir: yaşamaq hüququ, azadlıq hüququ və şəxsi toxunulmazlıq hüququ. Bu maddə sənədin ilk sütunu olmaqla mülki hüquqların inkişaf etdirildiyi bir sıra digər maddələrə yol açır. Xüsusən, 5-ci maddə qəddar, qeyri-insani və ləyaqəti alçaldan rəftara yol verilməməsini; 7-ci maddə hər kəsin, heç bir fərq qoyulmadan, qanun qarşısında bərabərliyini; 8-ci maddə səlahiyyətli milli məhkəmələr tərəfindən hüquqların effektiv bərpa edilməsini; 12-ci maddə şəxsi və ailə həyatına özbaşına müdaxilədən, mənzil toxunulmazlığının və yazışma sirrinin pozulmasından müdafiəni; 17-ci maddə həm şəxsən, həm də digərləri müştərək əmlaka sahib olmaq hüququnu müəyyən edir **(8)**.

Bəyannamənin bu və ya digər standartları hər bir insanın layiqli inkişafı, onun hüquq və qanuni maraqlarının təmini üçün zəruri olan ümumi insani dəyərləri əks etdirir. Onlar dünya ictimaiyyətinin topladığı təcrübəni göstərir və sivil dövlətlərin ondan aşağı enə bilməyəcəyi həddi müəyyən edir. Maraqlıdır ki, 1948-ci il Ümumdünya insan hüquqları bəyannaməsində ilk dəfə olaraq əks olunan bir çox konsepsiyalar sonrakı beynəlxalq-hüquqi sənədlərdə yenidən məzmun olaraq təkrar edilir, milli səviyyədə isə bu sənəd bir çox ölkələrdə bütövlükdə və ya qismən ehtiva edilir. Bütün bunlar, Bəyannamənin məcburi normaları ehtiva etməyib, tövsiyə xarakterli olmasına baxmayaraq baş verir **(9)**.

Ümumdünya bəyannaməsinin müddəalarının, eləcə də insan hüquqlarına aid müddəaların birbaşa inkişafı «Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq pakt»ın işlənib hazırlanması oldu **(10)**. Bu norma-

tiv sənədin əhəmiyyəti onun nəzərdən keçirilən sahədə beynlxalq standartları daha yüksək səviyyədə, müfəssəl və ətraflı müəyyən etməsindədir. Paktın Ümumdünya bəyannaməsindən əsaslı fərqi bəyan edilən hüquqların mümkün dərəcədə daha çox təmin edilməsinə səy göstərməsindədir. Nümunə kimi, göstərilən beynəlxalq sənədin insanların məhkəmə qarşısında bərabərliyini ümumi şəkildə ifadə edən müddəasının cinayət işi üzrə ədalət mühakiməsi sahəsində təminatlarla bağlı konkret göstərişlərlə tamamlandığı 14-cü maddəsinə istinad etmək olar.

Ümumiləşdirilmiş şəkildə bu yanaşma hər bir iştirakçı-dövlətin öz ərazisi çərçivəsində və yurisdiksiyası altında olan şəxslərin hüquqlarını təmin etmək və bu hüquqlara hörmət etməklə, eləcə də əgər həbs edilməyibsə, bu hüquqların həyata keçirilməsi üçün zəruri qanunverici və digər tədbirlərin qəbulu ilə öhdəlikləri Paktın 2-ci maddəsində ifadə edilib.

İctimai və dövlət təhlükəsizliyi üçün zəruri olduqda və ya tərəflərin özəl həyatları bunu tələb etdikdə, yaxud bu cür aşkarlıq ədalət mühakiməsinin maraqlarını poza biləcəyi digər hallarda qapalı məhkəmə araşdırmasına icazə verildiyi 14-cü maddə də xüsusi diqqətə layiqdir. Sözsüz ki, bu müddəa cinayət-prosessual münasibətlərin subyektlərinə əks təsir göstərdiyi halları da əhatə edir.

Paktda təsbit edilmiş standartlar və konkret prosedurlar realizəsi baxımından iştirakçı dövlətlər üçün məcburidir. 2-ci maddənin 3-cü bəndinə müvafiq olaraq hər bir dövlət:

a) hazırkı Paktda tanınan hüquq və azadlıqları pozulan hər bir şəxsə, bu pozuntu rəsmi keyfiyyətdə fəaliyyət göstərən şəxslər tərəfindən həyata keçirildikdə belə, effektiv hüquqi müdafiə vasitələrini təmin etməli;
b) bu cür müdafiəni tələb edən hər bir şəxs üçün hüquqi müdafiə hüququnun səlahiyyətli məhkəmə, inzibati və qanunverici hakimiyyət və ya dövlətin hüquq sistemi ilə nəzərdə tutulan digər hər hansı bir səlahiyyətli orqan ilə müəyyən edilməsini təmin etməli;
c) hüquqi müdafiə vasitələri verildiyi halda, səlahiyyətli hakimiyyət tərəfindən tətbiqini təmin etməlidir.

Nəzərdən keçirilən sənədlər ümumi xarakter daşısalar da, onlara daxil edilmiş standartlar cinayət məhkəmə icraatı sferasına cəlb edilmiş istənilən şəxs üçün böyük əhəmiyyətə malikdir. Qeyd etmək lazımdır ki, ayrı-ayrı müəlliflər heç də tam şəkildə bu fikirlə razı deyillər. Belə ki, A.D.Boykov qeyd edir ki, insan hüquqları haqqında beynəlxalq paktlarda «söhbət ya abstrakt şəxsiyyətlər, ya da təqsirli şəxs, müttəhim, məhkum haqqında gedir, ancaq heç vaxt – prosessual şəxs kimi zərərçəkəndən söhbət getmir» **(11)**.

Beynəlxalq prinsip və standartların işlənib hazırlanması sahəsində BMT orqanlarının fəaliyyəti, həmçinin cinayət məhkəmə icraatı iştirakçılarına münasibətdə məhkəmə və hüquq mühafizə orqanlarının vəzifəli şəxslərinin hərəkətlərini müəyyən edən normaların formalaşdırılmasına yönəlib. Axı, hakimlərin, prokurorların, təhqiqatçıların və məhkəmə icraatını həyata keçirən digər şəxslərin peşəkar və əxlaqi keyfiyyətlərindən qəbul edilən müdafiə tədbirlərinin effektivliyi çox asılıdır.

Bu vəziyyətə, hələ, «Karakas bəyannaməsi» diqqət yetirmişdir, burada cinayət ədalət mühakiməsi sahəsində siyasətin və onun həyata keçirilməsi sisteminin işin tez və ədalətli araşdırılmasını təmin edən məhkəmə orqanlarının mövcudluğunu təmin edən, eləcə də hər kəsə maksimal təhlükəsizlik və hüquq və azadlıqların mühafizəsini təqdim edən prinsiplərə əsaslandığı qeyd edilirdi **(12)**.

Təsadüfi deyil ki, «İşgəncənin və digər qəddar, qeyri-insani və ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı şəxslərin müdafiəsi haqqında Bəyannamə» də insanlara güclü ağrı, fiziki və əqli əzab verən qəddar, qeyri-insani və ləyaqəti alçaldan rəftarın yol verilməməsinə yönəlmiş effektiv tədbirlərin (qanunvericilik, inzibati və digər xarakterli) qəbul edilməsinin zəruriliyi haqqında danışılır **(13).** Bu sənəddə zəruri informasiya əldə etmək, cinayət məhkəmə icraatının iştirakçısını və ya digər şəxsləri qorxutmaq məqsədi ilə həyata keçirilən rəsmi şəxsin (və ya onun təhriki ilə başqa şəxsin) qanunsuz hərəkətləri nəzərdə tutulur. Bu cür əməllər törədildiyi halda, müvafiq dövlətin səlahilyyətli orqanları zərərçəkəndən rəsmi şikayət almağı gözləmədən dərhal qərəzsiz araşdırmaya başlamalıdırlar.

Bəyannamənin müddəaları daha ətraflı şəkildə «İşgəncənin və digər qəddar, qeyri-insani və ləyaqəti alçaldan rəftar və cəza növləri əleyhinə Konvensiya»da açılıb **(14).** İddiaçının və şahidlərin cinayət məhkəmə icraatında iştirakı ilə bağlı istənilən rəftardan və qorxutmadan müdafiəsini təmin edən tədbirlərin qəbulunu dövlətlərin üzərinə öhdəlik kimi qoyan norma xüsusi diqqət cəlb edir.

Bu cür normalar həm də «İctimai qaydanın təmin edilməsi üçün vəzifəli şəxslərin Davranış Məcəlləsi»ndə nəzərdə tutulub **(15).** Bu sənəd polis və digər hüquq mühafizə orqanları üçün etik normaların bir növ beynəxalq məcəlləsidir. Onun əsasında polis funksiyalarını yerinə yetirən vəzifəli şəxslərin öz vəzifələrini yerinə yetirdikləri zaman hər bir şəxsə münasibətdə insan ləyaqətinə və insan hüquqlarına hörmət etməli və onu müdafiə etməli olması fikri dayanır. Xüsusən də, məcəllə digər şəxslərin özəl həyatlarına aid ola biləcək və bu cür şəxslərin maraqlarına, xüsusilə də ictimai nüfuzlarına zərər yetirə biləcək konfidensial xarakterli məlumatların sirr saxlanılması zərurətini müəyyən edir (4-cü maddə); qəddar, qeyri-insani və ləyaqəti alçaldan rəftar növlərini ehtiva edən istənilən hərəkətin həyata keçirilməsini, ona təhrik edilməsini və dözülməsini qadağan edir (5-ci maddə).

Bu sənəddə əks olunan məqsəd və vəzifələrə nail olmaq üçün beynəlxalq ictimaiyyət polis funksiyalarını həyata keçirərkən, eləcə də hüquq mühafizə orqanları əməkdaşlarının seçimi aparılarkən, əsas təlim və sonrakı digər hazırlıq və ixtisasartırma gedişində rəhbərlik edilməli olan «İctimai qaydanın təmin edilməsi üçün vəzifəli şəxslərin Davranış Məcəlləsini effektiv həyata keçirmək üçün Rəhbər prinsiplər»i işləyib hazırlamışdır **(16).**

Məhkəmə və hüquq-mühafizə orqanlarının düzgün fəaliyyət göstərməsi məqsədinə, eləcə də «Məhkəmə orqanlarının müstəqilliyinin Əsas prinsipləri»; «Hüquqşünasların rolu ilə bağlı Əsas prinsiplər» **(17)** və «Məhkəmə təqibini həyata keçirən şəxslərlə bağlı Əsas prinsiplər» xidmət edir **(18).** Bu sənədlərdə göstərilən şəxslərin vəziyyətinə dair kriteriyalar, xüsusən də onların seçimi və hazırlığı, peşəkarlığlı, xidmət şərtləri və səlahiyyət müddətləri göstərilir. Prinsiplər, eləcə də cinayət ədalət mühakiməsində cinayət prosesinin iştirakçılarına münasibətdə effektivliyin, qərəzsizliyin və ədalətliliyin təmin edilməsi zərurətini nəzərdə tutur. Hakimlər, hüquqşünaslar və cinayət təqibini həyata keçirən şəxslər idealları dərk etməli və onların fəaliyyətinə xas olan etik normalara riayət etməli, cinayət-prosessual münasibətlərin subyektlərinin hüquqlarının müdafiəsi üzrə qanunvericilik tədbirləri

barədə məlumatlı olmalıdırlar. Xüsusi rol milli, regional və beynəlxalq səviyyədə rəhbər prinsiplərin təsbit və tətbiq edilməsinə ayrılır.

Cinayət məhkəmə icraatı iştirakçılarının müdafiəsinin effektivliyi müvafiq vəzifəli şəxslərin əxlaqi və peşəkar keyfiyyətlərindən çox asılı olduğuna görə, nəzərdən keçirilən BMT sənədlərinin əhəmiyyətinə diqqət yetirmək lazımdır. Cinayət-prosessual münasibətlərin subyektlərinin təhlükəsizliyi üzrə tədbirlər həyata keçirən hüquq-mühafizə orqanlarının əməkdaşlarına xüsusi tələblər irəli sürülür – onlar yüksək əxlaqi-etik keyfiyyətlərə, zəruri peşəkar hazırlığa, müdafiə etdikləri şəxslərlə əməkdaşlıq vərdişlərinə malik olmalıdırlar.

Məhkəmə və hüquq-mühafizə orqanlarının lazımi şəkildə fəaliyyət göstərməsini təmin edəcək beynəlxalq normaların qəbulu ilə yanaşı, öz funksiyalarını vicdanla yerinə yetirdikləri zaman bu orqanların vəzifəli şəxslərinin ciddi müdafiəsini təşkil etməyi məqsəd qoyan sənədlərin hazırlanması prosesi gedirdi.

Xüsusən də «Məhkəmə orqanlarının müstəqilliyinin Əsas prinsipləri»ndə qeyd edilir ki, məhkəmələrin təhlükəsizliyi dövlət tərəfindən lazımi şəkildə təmin edilməli və ölkənin konstitusiyasında və qanunlarında təsbit edilməlidir (11-ci bənd). Ədalət mühakiməsi prosesinə qanunsuz və sanksiyasız müdaxiləyə yol verilməməlidir (4-cü bənd). Hər bir dövlət öz məhkəmə orqanına lazımi şəkildə fəaliyyət göstərməyə imkan verəcək müvafiq vasitələri təqdim etməlidir (7-ci bənd).

«Hüquqşünasların rolu ilə bağlı Əsas prinsiplər»də ona diqqət yetirilir ki, hüquqşünasların peşəkar assosiasiyaları peşəkar norma və etikaların təminində, öz üzvlərini təqiblərdən, qanunsuz məhdudiyyət və özbaşınalıqlardan qorumaqda əhəmiyyətli rol oynayır. Dövlətlərin hökumətləri hüquqşünaslara öz peşəkar öhdəliklərinin hamısını təhdid, maneə, qorxutma və əsassız müdaxilə olmayan bir şəraitdə həyata keçirmək imkanını təqdim etməlidir. Öz funksiyalarını yerinə yetirdikləri zaman hüquqşünasların təhlükəsizliyinə təhdid yarandığı zaman hökumət lazımi müdafiəni təmin etməlidir.

Analoji müddəalar «Məhkəmə təqibini həyata keçirən şəxslərlə bağlı Rəhbər prinsiplər»də təsbit edilib. Dövlətlərə cinayət-prosessual münasibətlərin göstərilən subyektlərini təqsirləndirilən şəxslərin hüquqazidd hərəkətləri qorumaq təklif edilir. Öz peşəkar funksiyalarını yerinə yetirmələrinin nəticəsində təhlükəsizliklərinə təhdid olarsa, məhkəmə təqibini həyata keçirən şəxslərə, eləcə də onların ailələrinə hökumət tərəfindən fiziki müdafiə təmin edilir.

1985-ci ildən başlayaraq, BMT cinayət məhkəmə icraatı iştirakçılarının müdafiəsinin prinsip və standartlarının işlənib hazırlanması üzrə daha intensiv iş aparır. Dünya ictimaiyyəti narahat olmuşdu ki, «cinayət qurbanlarına ..... eləcə də çox vaxt onların ailələrinə, şahidlərə və onlara yardım edən digər şəxslərə ədalətsiz olaraq zərər, fiziki yara və əmlaklarına ziyan vurulur, bundan başqa, onlar hüquq pozucularına qarşı məhkəmə təqibinə kömək göstərdikləri zaman məhrumiyyətlərlə üzləşə bilirlər» **(19)**. Cinayət məhkəmə icraatı iştirakçılarının hüquqlarının hamılıqla və effektiv tanınması və onlara hörmət edilməsi üzrə beynəlxalq və milli tədbirlərin həyata keçirilməsinə ciddi zərurət yarandı.

Bu fikir cinayətlərin qarşısının alınması və milli və beynəlxalq səviyyədə cinayət ədalət mühakiməsi sahəsində beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi üzrə fəaliyyət planının qəbul olunduğu BMT-nin 1985-ci ildə Milanda keçirilmiş VII Konqresində inkişaf etdirildi. Elə bu

Konqresdə cinayət qurbanlarına ayrıca fəslin ayrıldığı «Yeni beynəlxalq iqtisadi qaydanın inkişaf kontekstində cinayətlərin qarşısının alınması və cinayət ədalət mühakiməsi sahəsində Rəhbər prinsiplər» tövsiyə edildi. Bu fəsildə dövlətlərə cinayət qurbanlarına cinayət nəticəsində onlara dəymiş ziyana görə təzminat da daxil olmaqla, effektiv hüquqi müdafiə vasitələrini təmin etmək məqsədi ilə dövlətlərə zəruri qanunvericilik və digər tədbirlərin qəbul edilməsi təklif edilir.

Ancaq incələnməkdə olan bu sahədə ən önəmli hadisə ədaləti təmin etməyə və göstərilən kateqoriya şəxslərin ədalət mühakiməsinə müraciət etməsini təmin etməyə yönəlmiş səylərində beynəlxalq ictimaiyyətə və hökumətlərə yardım etmək məqsədi ilə qəbul edilən «Cinayət və hakimiyyətdən sui-istifadə qurbanları üçün ədalət mühakiməsinin əsas prinsipləri haqqında Bəyannamə» oldu **(20)**. Qeyd etmək lazımdır ki, bu sənədin əsasında cinayət qurbanları və şahidləri ilə ədalətli rəftarın rəhbər prinsiplərinin təsbit edildiyi 12 oktyabr 1982-ci il tarixli (ABŞ) «Cinayət qurbanlarının və şahidlərinin müdafiəsi haqqında Qanun» durur.

İlk dəfə olaraq, Bəyannamə nəzərdən keçirilən sənəddə əsas rol oynayan «qurban» termininin anlayışını və hərtərəfli analizini verir. Bu ad altında milli cinayət qanunvericiliyi ilə nəzərdə tutulmuş cinayət hərəkəti və ya hərəkətsizliyinin törədilməsi nəticəsində fiziki yara, mənəvi ziyan, emosional əzab, maddi zərər vurulan və ya əsas hüquq və qanuni maraqları əsaslı dərəcədə pozulan şəxslər başa düşülür. Bəyannaməyə əsasən, hüququ pozanın müəyyən edilməsi, tutulması, həbs edilməsi, məhkəməyə verilməsi və məhkum edilməsindən, eləcə də zərərçəkmişlə cinayətkar arasında qohumluq əlaqələrinin olmasından asılı olmayaraq, bu və ya digər şəxs «qurban» hesab edilir və bu şəkildə tanınmalıdır. Müvafiq hallarda «qurban» termini qanunazidd əməldən zərərçəkmiş şəxsin yaxın qohumlarını və ondan asılı olan şəxsləri, eləcə də zərərçəkmişə kömək etməyə cəhd göstərən zaman zərər vurulmuş şəxsləri əhatə edir.

Göstərilən beynəlxalq-hüquqi sənəddə şəxsin cinayət qurbanı kateqoriyasına daxil edilməsinə əsas verən təsvir belə düşünməyə imkan verir ki, ona münasibətdə qanunazidd hərəkətin törədildiyi cinayət prosesinin istənilən iştirakçısı «qurban»a çevrilir. Eyni zamanda «cinayət qurbanı» və «hakimiyyətdən sui-istifadənin qurbanı» anlayışlarını fərqləndirmək lazımdır. Birinci halda söhbət nəzərdən keçirilən kateqoriya şəxslərə qarşı törədilən istənilən cinayətdən, ikinci halda isə prosedur və maddi problemlərin müstəqil araşdırılmasını tələb edən qeyri-cinayət əməllərdən gedir.

Bəyannamə həm də cinayət qurbanları üçün ədalət mühakiməsinin əsas prinsiplərini təsbit edir. Göstərilən kateqoriya şəxslər üçün ədalət mühakiməsinin daha ədalətli və rasional həyata keçirilmə formaları haqqında cəmiyyətdə hökmran təsəvvürlərə müvafiq olaraq formalaşdırılmış prinsiplər öz aralarında orqanik əlaqədə və qarşılıqlı asılılıqda olduğuna görə vahid sistem əmələ gətirirlər.

Onların arasında aşağıdakılar xüsusi əhəmiyyətə malikdir:

- cinayət qurbanları ilə ədalətli rəftar etmək;
- cinayət qurbanlarının hüquqi və inzibati müdafiə mexanizmlərinə müraciət etməsini təmin etmək;
- qorxudulma və intiqam əleyhinə müdafiə;
- müvafiq informasiya təqdim edilməsi hüququnu təmin etmək;

- qeyri-rəsmi mexanizmlərdən istifadə etmək;
- restitusiya, təzminat və sosial yardım hüququnu təmin etmək.

Ədalətin təmin edilməsi əsaslı olaraq, ədalət mühakiməsinin mərkəzi problemi olduğundan, cinayət qurbanları ilə ədalətli rəftar etmək prinsipi olduqca əhəmiyyətlidir **(21)**. Bəyannamə qanunazidd əməllərdən zərərçəkmiş şəxslərə mərhəmətlə münasibət göstərməyi və onların ləyaqətinə hörmət göstərməyi tələb edir. Bu müddəanı inkişaf etdirərək, beynəlxaq sənəd qurbanlara ədalətli məhkəmə və inzibati mexanizmlər; ədalətli restitusiya, bütün məhkəmə araşdırması boyunca lazımi kömək göstərməyi tövsiyə edir. Cinayətdən zərərçəkmiş şəxslərə kömək və xidmət göstərəndə zərərin xarakterli və digər amillərlə şərtləndirilmiş xüsusi ehtiyac duyan şəxslərə diqqət yetirmək təklif edilir.

Proses iştirakçılarına qarşı ədalətli rəftar edilməsini təmin edərək, Bəyannamə, həmçinin cinayət qurbanlarına hüquqi və inzibati müdafiə mexnizmlərinə müraciət etmək prinsipini təsbit etmişdir. Təsadüfi deyil ki, gözdən keçirilən hüquqi aktda realizəsi üçün məhkəmə və inzibati mexanizmlərin yaradılmasının zəruri olduğu qurbanların ədalət mühakiməsinə müraciət hüququndan danışılır. Məhkəmə araşdırmasının istənilən mərhələsində nəzərdən keçirilən proses iştirakçıları öz şəxsi maraqlarına toxunulan hallarda öz fikir və arzularını ifadə etmək hüququna malikdirlər.

Cinayət qurbanlarının qorxudulma və intiqamdan müdafiəsi ədalət mühakiməsinin prinsipi kimi «Qurbanlar üçün rahatsızlığın minimuma endirilməsi, zəruri olduqda onların şəxsi həyatlarının mühafizəsi, onların, eləcə də onların ailələrinin və şahidlərin təhlükəsizliyinin təmini və onların qorxudulmadan və intiqamdan müdafiəsi üzrə tədbirlərin həyata keçirilməsi»nin məqsədəuyğunluğundan danışılan Bəyannaməsinin 6d bəndinə əsaslanır.

Müvafiq informasiyanın təqdim edilməsi hüququnun təmin edilməsi prinsipi incələnən sənəddə kifayət qədər müfəssəl və tam əks olunmuşdur, buna müvafiq olaraq ədalət mühakiməsi sisteminin işçiləri bunlara riayət etməlidir:

a) cinayət qurbanına, proses iştirakçısı kimi rolunu və əhəmiyyətini izah etmək;
b) qurbana ilkin istintaqın və məhkəmə araşdırmasının müddəti, həcmi, gedişatı və nəticələri haqqında kifayət qədər informasiya təqdim etmək və məlumatlandırmaq;
c) məhkəmə və inzibati mexanizmlərin vasitəsilə təzminat almağa cəhd göstərən qurbanı hüquqları haqqında məlumatlandırmaq;
ç) qurbanı tibbi və sosial xidmətlər, digər müvafiq yardımın mövcudluğu haqqında məlumatlandırmaq, eləcə də onlardan istifadə imkanını təmin etmək.

Nəzərdən keçirilən hüquqi aktda, həmçinin cinayət qurbanı və təqsirləndirilən şəxs arasında mübahisələrin tənzimlənməsi, barışığın təmin edilməsi və zərərin ödənilməsi məqsədi ilə tətbiq edilən qeyri-rəsmi mexanizmlərdən istifadə prinsipi təsbit edilib. Qeyri-rəsmi mexanizmlərə vasitəçilik, arbitraj, adət hüququ məhkəmələri, yerli praktika aid edilir (7-ci bənd). Bu prinsipin təsbit edilməsi ilk növbədə qurbanların heç olmazsa, rəsmi sistemin istifadəsindən əldə edə biləcəyi səviyyədə, konfliktin əlverişli həlli üzrə hiss və arzularını təmin etməyə yönəlmişdir.

Bəyannamədə restitusiya, təzminat və sosial yardım hüququnun təmini prinsipi də öz normativ əksini tapmışdır. Belə ki, 4-cü bənddə müvafiq olaraq, cinayət qurbanları məhkəmə və inzibati mexanizmlər ilə həyata keçirilən rəsmi və qeyri-rəsmi prosedurların vasitəsilə onlara dəymiş ziyana görə cəld və sürətli təzminat almaq hüququna malikdirlər. Bu məqsədlə dövlətlər milli fondların yaradılması, gücləndirilməsi və genişləndirilməsinə kömək göstərməlidirlər. Əgər onlar qurbana dəymiş zərəri ödəmək iqtidarında deyillərsə, onda digər fondların yaradılmasına imkan verilir.

Hüquq pozan şəxsdən və ya digər mənbələrdən təzminatı tam həcmdə almağın mümkün olmadığı hallarda isə, dövlətlər aşağıdakı kateqoriya şəxslərə maliyyə təzminatının ödənilməsi üçün tədbirlər həyata keçirməlidirlər:

a) ağır cinayətlərin nəticəsində əhəmiyyətli fiziki yaralar alan və əhəmiyyətli dərəcədə fiziki və ya psixi sağlamlığına xələl gələn şəxslər;

b) ailələr: xüsusən, bu cür qurban olmanın nəticəsində ölən və ya fiziki və psixi cəhətdən fəaliyyət qabiliyyətindən məhrum olan şəxslərdən asılı olanlar.

Bəyannamənin bu müddəaları ölkələrin maliyyə imkanlarının nəzərə alınması və şəxsiyyət əleyhinə cinayətlərə xüsusi diqqətin verilməsi ilə cinayət qurbanlarına təzminat ödəmələri üçün əsasların müəyyən edilməsində seçici yanaşmanın zəruriliyindən irəli gəlir.

Cinayətlərin qurbanları, onların ailələri və onların asılılığında olan şəxslər də hüquq pozan şəxs və ya onların davranışı üçün məsuliyyət daşıyan üçüncü şəxslər tərəfindən ədalətli restitusiya hüququna malikdirlər. Bu cür restitusiya cəzalandırma tədbirlərindən biridir və əmlakın qaytarılmasını və ya törədilmiş zərərin və ya ziyanın ödənilməsini, qurban olmaq nəticəsində çəkilmiş xərclərin ödənilməsini, xidmətlərin göstərilməsini və hüquqların bərpa edilməsini ehtiva edir. Bundan başqa, nəzərdən keçirilən kateqoriya şəxslər hökumət, könüllü, ictimai və yerli kanallar vasitəsilə zəruri maddi, tibbi, psixoloji və sosial yardım almaq hüququna malikdir.

Bu sənədin struktur və məzmunu müəyyən dərəcədə dövlət məhkəmə və hüquq mühafizə orqanlarının əməkdaşlarına cinayət qurbanlarının müdafiəsinin mürəkkəb və çoxtərəfli probleminin həllində lazımi istiqaməti müəyyən etməyə kömək edir. Eyni zamanda Bəyannamə polis, ədalət mühakiməsi sistemi işçilərinə və digər müvafiq personala qurbanların ehtiyaclarını və lazımi operativ yardımın göstərilməsi üzrə rəhbər prinsipləri anlamağa imkan verəcək xüsusi hazırlıq keçməyi tövsiyə edir.

Bütövlükdə, Bəyannaməyə beynəlxalq əməkdaşlıq sahəsində önəmli nailiyyət kimi baxmaq olar. Şübhəsiz ki, bu sənəd cinayət prosesi iştirakçılarının müdafiəsinin lazımi mexanizmlərinin formalaşdırılması üçün başlanğıc müddəalar olan əsas və prinsipial fikirlər sistemini müəyyən etməyə imkan verdi. Bəyannamə və onun qəbul edilməsi faktı cinayət qurbanlarının problemlərinə marağın artmasına səbəb oldu və onların vəziyyətinin yaxşılaşdırılmasına yönəlmiş tədbirlərə münasibətdə yeni təşəbbüslərin irəli sürülməsini təmin etdi **(22)**.

Hüququ pozanlardan zərərçəkmişlərin müdafiəsinin standart və rəhbər prinsipləri milli sistemlər üçün yaxşı istiqamətverici oldu. Bir sıra ölkələrdə ya Bəyannamənin dəqiq müddəalarını, ya da onun ruh və məzmununu əks etdirən yeni qanunvericilik aktları qəbul edildi **(23)**. Digər

hallarda cinayət qurbanlarının hüquqi statusunun yaxşılaşdırılmasına yönəlmiş müddəalar artıq mövcud olan qanunlara daxil edildi **(24)**.

Eyni zamanda Bəyannamə cinayət məhkəmə icraatı iştirakçılarının vəziyyətini təkmilləşdirən yeni beynəlxalq sənədlərin hazırlanmasının əsası oldu. Onun qəbulundan sonra nəzərdən keçirilən sahədə təşəbbüslərin irəli sürüldüyü beynəlxalq səviyyədə bir sıra hadisələr baş verdi. Onlar cinayət qurbanlarının müdafiəsinin standart və prinsiplərinin praktik həyata keçirilməsinə yönəlmişdilər. Bu tədbirlərin sırasında mərkəzi yeri Bəyannaməni hüquq tətbiqetmə fəaliyyətində realizə etməyə imkan verən konkret müddəaların işlənib hazırlanması tutur.

Belə ki, 1986-cı il 16 maydan 19 maya kimi BMT-nin xüsusi ekspertlər qrupu Beynəlxalq kriminoloji araşdırmalar üzrə ali institutda (Sirakuz şəhəri, İtaliya) «Cinayət və hakimiyyətdən sui-istifadə qurbanlarına münasibətdə ədalət mühakiməsinin əsas prinsipləri haqqında Bəyannamə»ni həyata keçirmək üçün tədbirlər barədə məruzənin hazırlandığı məşvərət həyata keçirdi. Sonralar bu sənədə cinayətlərin qarşısının alınması, ədalət mühakiməsi və hüququ pozan şəxslər və qurbanlarla rəftar məsələləri ilə məşğul olan aparıcı qeyri-hökumət təşkilatlarının iştirakı ilə 1987-ci ilin noyabr və dekabr aylarında Milanda (İtaliyada) keçirilən müzakirələrdə bir sıra dəyişikliklər edildi.

Nəzərdən keçirilən problemlə bağlı önəmli hadisə BMT Baş Katibinin Cinayətlərin qarşısının alınması və onunla mübarizə Komitəsinə onuncu və on birinci sessiyalarda təqdim edilən «Cinayət və hakimiyyətdən sui-istifadə qurbanları üçün ədalət mühakiməsinin əsas prinsipləri haqqında Bəyannamə»nin həyata keçirilməsi üçün qəbul edilən tədbirlər barədə iki məruzə etməsi oldu **(25)**. Bu məruzələrdə qurbanlarla bağlı sahədə ən son tendensiyalar; cinayət qurbanları ilə bağlı milli təşəbbüslər; restitusiya və təzminat problemləri; kadrların hazırlığı və beynəlxalq əməkdaşlıq məsələləri nəzərdən keçirilmişdi.

Cinayətlərin qarşısının alınması və onunla mübarizə üzrə Helsinki institutunun köməyi ilə 1990-cı ildə «Cinayət və hakimiyyətdən sui istifadə qurbanları üçün ədalət mühakiməsinin əsas prinsipləri haqqında Bəyannamənin həyata keçirilməsinə münasibətdə cinayət ədalət mühakiməsi sistemi əməkdaşları üçün Göstərişlər» hazırlandı **(26)**. Bu sənəddə müxtəlif milli sistemlərin təcrübəsinin əsasında işlənib hazırlanmış cinayət-prosessual münasibətlərin subyektlərinin müdafiəsi üzrə konkret tədbirlər məcmusu ehtiva edilir. Xüsusən, Göstərişlər hüquq-mühafizə orqanlarına cinayətkar tərəfindən təhdidlər edilməsi nəticəsində qorxu hissini yaşayan cinayət qurbanlarının müdafiəsi və dəstəklənməsi üzrə lazımi tədbirlər həyata keçirməyi tövsiyə edir. Bu məqsədlə polis mühafizəsi, yaşayış yerinin dəyişdirilməsi və ya effektiv olan digər bir müdafiə növü həyata keçirilə bilər. Həyata keçirilən tədbirlər haqqında cinayət qurbanlarının məlumatlandırılması çox əhəmiyyətlidir (35-ci bənd). Şahid ifadələri verməkdən qorxduqları halda, ayrı-ayrı milli qanunvericiliklər dindirmənin videoyazıya alınmış variantını və ya birbaşa videoyazını istifadə etməyə icazə verir. Bu, xüsusən, tez-tez yetkinlik yaşına çatmayanlara münasibətdə cinayət işlərində həyata keçirilir (55-ci bənd). Bu Göstərişlər müasir dövrdə bu sahədə qeyri-hökumət təşkilatlarının önəmli rolu nəzərə alınmaqla, hər ölkənin hüquqi, sosial, mədəni və iqtisadi şəraitlərinə uyğun olaraq həyata keçirilir.

Göstərilən təşəbbüslərlə yanaşı, BMT «Cinayət və hakimiyyətdən sui-istifadə qurbanları üçün ədalət mühakiməsinin əsas prinsipləri haqqında

Bəyannamə»nin həyata keçirilməsinə və şahidlər üçün lazımi müdafiəni təmin etməyə xüsusi önəm verən beynəlxalq sənədlərin, standart və normaların hazırlanması zərurətindən danışan «İnkişaf kontekstində cinayətkarlığın qarşısının alınması və cinayət ədalət mühakiməsi sahəsində beynəlxalq əməkdaşlığa münasibətdə Tövsiyələr»i hazırladı **(27)**.

24 may 1989-cu ildə BMT-nin İqtisadi və Sosial Şurası 15-ci plenar iclasında iddiaçıların, şahidlərin, araşdırmanı həyata keçirən şəxslərin, eləcə də onların ailə üzvlərinin zorakılıqdan, zorakılıqla təhdiddən və istənilən qorxutma formasından mühafizə etməyi dövlətlərə tövsiyə edən «Qeyri-qanuni, özbaşına və ümumi edamların qarşısının effektiv alınması və araşdırılması Prinsipləri»ni işləyib hazırladı (15-ci maddə). Təhqiqatın nəticələri haqqında yazılı hesabatda konkret cinayət hadisələri haqqında, onlara əsaslanaraq bu nəticələrin alındığı sübutlar barədə məlumat, eləcə də ifadə verən şahidlərin soyadları göstərilməlidir. İstisna kimi müdafiə məqsədi ilə şəxsiyyətləri açıqlanmayan şahidlər çıxış edir (17-ci maddə).

Elə bu plenar iclasda dövlətlərə aşağıdakı tədbirləri həyata keçirməyi tövsiyə edən «Cinayət və hakimiyyətdən sui-istifadə qurbanları üçün ədalət mühakiməsinin əsas prinsipləri haqqında Bəyannamənin həyata keçirilməsi» adlı sənəd qəbul edildi:

a) bəyannamədə ehtiva edilən standartları və rəhbər prinsipləri milli ədalət mühakiməsi sistemlərində qəbul etmək və həyata keçirmək;

b) təzminat və restitusiya almaq məqsədi ilə cinayət qurbanlarına ədalət mühakiməsi mexanizmlərinə müraciət etməyi asanlaşdıran qanunvericiliyi işləyib hazırlamaq və qəbul etmək;

c) dəymiş faktiki ziyana və zərərə görə adekvat təzminat, maneələrin üzə çıxarılması və onların aradan qaldırılması üçün yolların axtarılması da daxil olmaqla qurbanlara effektiv yardım göstərilməsi metodlarını nəzərdən keçirmək;

ç) effektiv hüquqi müdafiə vasitələri də daxil olmaqla, qurbanları cinayət məhkəmə icraatı və ya digər araşdırma gedişində sui-istifadədən, böhtanedici ittihamlardan və qorxutmadan müdafiə etmək üçün tədbirlər hazırlamaq.

Eləcə də cinayət qurbanlarına xidmət göstərməklə məşğul olan şəxslər üçün tövsiyələr hazırlandı. Onlardan aşağıdakıları göstərmək olar:

a) cinayətin emosional təsirinin aradan qaldırılması, eləcə də faktoloji informasiya verilməsi üzrə qurbanlara vaxtında yardım etməyə imkan verən (peşəkar hazırlıq çərçivəsində) vərdiş və biliklərin təkmilləşdirilməsi;

b) milli, regional və beynəlxalq səviyyədə hökumət orqanları və qurbanların maraqlarını təmsil edən təşkilatlar arasında effektiv əməkdaşlıq kanallarının qurulması;

c) qurbanların ehtiyaclarının müəyyən və təmin edilməsi məqsədi ilə elmi və praktik araşdırmaların həyata keçirilməsi.

Bu sənəddə cinayət məhkəmə icraatı iştirakçılarının hüquq və qanuni maraqlarının təmin edilməsi sahəsində cinayət işləri üzrə beynəlxalq əməkdaşlığın inkişafına xüsusi diqqət ayrılıb. Xüsusən, digər dövlətdə cinayət qurbanına çevrilmiş şəxslər cinayət törədildikdən sonra, eləcə də daimi yaşadıqları və ya vətəndaşı olduqları ölkəyə qayıtdıqda dərhal effektiv kömək almalıdırlar (4-cü bənd).

BMT Baş Assambleyası 15 dekabr 1989-cu ildə özünün 44/162 saylı qətnaməsi ilə bu sənədi bəyəndi və dövlətlərə onun tövsiyələrini ədalət mühakiməsinin həyata keçirilməsi zamanı insan hüquqlarının müdafiəsi sahəsində BMT norma və standartlarının praktiki tətbiq edilməsi üçün strategiyaların işlənib hazırlanmasında istifadə etməyi təklif etdi **(28).**

Cinayət məhkəmə icraatı iştirakçılarının müdafiəsi üzrə hazırlanmış standart və prinsiplərin praktik realizəsi və müxtəlif ölkələrin ehtiyac və şəraitinə uyğunlaşdırılması üzrə səylərin göstərilməsinin davam edilməsi zərurətini nəzərə alaraq, BMT-nin İqtisadi və Sosial Şurası 24 may 1990-cı il tarixdəki 13-cü plenar iclasında «Cinayət və hakimiyyətdən sui-istifadə qurbanları» adlı 1990/22 saylı qətnamə qəbul etdi. Bu sənəddə, xüsusən transmilli cinayətlərin qurbanlarına münasibətdə, regional və beynəlxalq tədbirlərin inkişaf etdirilməsinin məqsədəuyğunluğundan danışılır. Şura BMT-yə müraciət edərək, qurbanlara yardım üzrə xüsusi xidmətlərin yaradılması məqsədi ilə texniki əməkdaşlıq proqramlarını dəstəkləməyi, hökumətlər müraciət etdikləri təqdirdə bu kateqoriya şəxslərin vəziyyətinin yüngülləşdirilməsi sahəsində onlara kömək göstərməyi, milli kanalların kifayət etmədiyi hallarda cinayət qurbanlarının hüquqi müdafiəsinin beynəlxalq vasitələrinin işlənib hazırlanmasını davam etdirməyi tövsiyə etdi. Dövlətlərə və BMT-nin regional və beynəlxalq institutlarına Şura bu məqsədlə hazırlanmış nümunəvi tədris proqramlarının nəzərə alınması ilə mütəxəssislərin və qurbanlarla məşğul olan digər şəxslərin lazımi şəkildə hazırlanması üzrə zəruri tədbirlər qəbul etməyi təklif etdi **(29).**

Qeyd etmək lazımdır ki, tövsiyələr insan hüquqları sahəsində BMT-nin əsas silahlarından biri sayılır. Beynəlxalq müqavilələrdən fərqli olaraq, onlar dövlətlər üçün hüquqi öhdəliklər kimi çıxış etmir. Ancaq bir çox hallarda hesab edilir ki, BMT Nizamnaməsinin 56-cı maddəsi dövlətlərin tövsiyələri ciddi və vicdanla nəzərdən keçirməsi öhdəliyini müəyyən edir və hətta onlara müsbət münasibət göstərməyi təklif edir. İnsan hüquqları sahəsində tövsiyə formasında olan BMT-nin ayrı-ayrı normalarının çoxları tərəfindən beynəlxalq adət hüququnun normalarına giriş olduğunu və ya onları gücləndirdiyini hesab etməsinə vadar edən nüfuz əldə etdiyini qeyd edən BMT-nin keçmiş Baş Katibi B.Butros-Qalinin fikri ilə razılaşmaq olar **(30).** Onlar elə bir xüsusi mühit yaradırlar ki, dövlətlərin azad iradələri olduqda beynəlxalq standartlara tam uyğun şəkildə milli qanunvericiliyi qurmağa, təkmilləşdirməyə və tətbiq etməyə imkan verir **(31).**

Son onilliкdə BMT təşkilat cinayətkarlıq və beynəlxalq terrorizmlə mübarizə sahəsində rəhbər prinsip və standartların yaradılması üzrə səylərini birləşdirir və nəticədə cinayət məhkəmə icraatı iştirakçılarının müdafiəsi ilə bağlı əhəmiyyətli müddəalar işlənib hazırlanıb. Cinayət qurbanları üçün ədalət mühakiməsinin əsas prinsiplərini inkişaf etdirən və cinayət-prosessual münasibətlərin konkret subyektlərinə münasibətdə təhlükəsizlik tədbirləri nəzərdə tutan bir sıra beynəlxalq sənədlər qəbul edilmişdir.

Belə ki, Cinayətlərin qarşısının alınması və hüququ pozan şəxslərlə rəftar üzrə BMT-nin VIII Konqresi (Havana, Kuba, 27 avqust – 7 sentyabr 1990-cı il) «Beynəlxalq terrorizmlə mübarizə üzrə tədbirlər» adını alan hüquqi akt qəbul etdi. Bu sənəddə cinayət mühakiməsinin iştirakçılarına həsr olunmuş üç müstəqil fəsil daxil edilib: «Hakimlərin və cinayət ədalət mühakiməsinin işçilərinin

müdafiəsi», «Qurbanların müdafiəsi» və «Şahidlərin müdafiəsi». Dövlətlərə hakimlərin və cinayət ədalət mühakiməsinin iştirakçılarının, o cümlədən andlı iclasçıların və məhkəmə proseslərində iştirak edən vəkillərin, eləcə də şahidlərin və terrorizm qurbanlarının müdafiəsinə yönəlmiş siyasətin hazırlanması və tədbirlərin həyata keçirilməsi tövsiyə edilir (22, 23, 25-ci bəndlər). Bunun üçün lazımi müdafiə mexanizmlərinin yaradılması və müvafiq qanunvericiliyin qəbulu, eləcə də cinayət-prosessual münasibətlərin göstərilən subyektlərinə kömək göstərmək üçün kifayət qədər resursların ayrılması zəruridir (23-cü bənd). Dövlətlərə təklif edilir ki, onlar cinayət mühakiməsi iştirakçılarının müdafiəsi proqramı üzrə effektiv qarşılıqlı əməkdaşlıq etsinlər və bir-birlərinə yardım göstərsinlər (22, 24, 26-cı bəndlər).

Elə bu Konqresdə cinayət işinin istintaqı və məhkəmə araşdırması gedişində, eləcə də hüquq-mühafizə orqanlarının fəaliyyətində getdikcə daha çox şahidlərin zorakılıqdan və qorxutmadan müdafiəsinin əhəmiyyət kəsb etdiyini qeyd edən «Təşkilati cinayətkarlığın qarşısının alınması və onunla mübarizə üzrə Rəhbər prinsiplər» qəbul edildi. Hüquqazidd təzyiq təhdidləri yarandığı hallarda şahidlərin şəxsiyyəti haqqında məlumatların konfidensiallığı saxlanılmalı, mühafizə edilən mənzil verilməli, şəxsi mühafizə təmin edilməli, yaşayış yeri dəyişdirilməli və maddi yardım göstərilməlidir (11-ci bənd).

VIII Konqres, eləcə də cinayətlərin qurbanlarına köməyin göstərilməsi üzrə dövlət və ictimai xidmətlərin yaradılması və bu sahədə mütəxəssislərin hazırlanması üçün müvafiq proqramların tərtib olunmasına yardım edilməsi məsələsini hökumətlərə gözdən keçirməyi tövsiyə edən «Cinayət və hakimiyyətdən sui-istifadə qurbanlarının hüquqlarının müdafiəsi» qətnaməsini qəbul etdi. Bu tədbirlərlə yanaşı, Konqres göstərilən proqramı hüquq fakültələrində, kriminolji institutlarda, hüquq-mühafizə orqanlarının və əməkdaşlarının hazırlığı üzrə mərkəzlərdə və məhkəmə işçilərini hazırlayan elmi müəssisələrdə realizə etməyi təklif etdi.

Qətnaməyə müvafiq olaraq, BMT Baş Assambleyasının 21-25 oktyabr 1991-ci il tarixdə Suzdal şəhərində (Rusiya) keçirilmiş 45-ci sessiiyasında təşkilatın cinayətkarlıqla mübarizə üzrə praktiki tövsiyələrinin hazırlandığı beynəlxalq seminar baş verdi. Yekun sənəddə proses iştirakçılarının müdafiəsinə xüsusi diqqət ayrılmışdı. Təklif edildi ki, milli cinayət ədalət mühakiməsi sistemləri qanunvericilik müddəalarının, proqramların və şahidlərin təhlükəsizliyinin təmin edilməsinə yönəlmiş digər qanunlara ciddi diqqət yetirsinlər. Xüsusən də, şahidlərin yer və soyadlarının dəyişdirilməsinə icazə verən, eləcə də təqsirləndirilən şəxs və onun əlbirləri tərəfindən təhdidlər mövcud olduğu hallarda fiziki müdafiəsini nəzərdə tutan tədbirlərin qəbulunun məqsədəuyğunluğunun gözdən keçirilməsində zərurət var. Bunun üçün şahidlərə (və onların ailələrinə) soyadlarını dəyişmək icazəsi verən sənədlərin təqdim edildiyi, müvəqqəti yaşayış yerinin verildiyi, yeni yaşayış yerinə mebelin və digər əşyaların daşınması problemlərinin tənzimləndiyi, maliyyə yardımının göstərildiyi, iş tapılmasına və digər xidmətlər görülməsinə kömək edildiyi, şahidlərin tam dolğun həyat sürməsinə imkan verəcək tədbirlər həyata keçirilməlidir **(32)**. Göstərilən tövsiyələr BMT Baş Assambleyasının 46-cı sessiyasında təqdir edildi və nəticədə, Cinayətlərin qarşısının alınması və cinayət ədalət mühakiməsi üzrə BMT komissiyasının birinci sessiyasına (Vyana, 21-30 aprel, 1992-

ci il) təqdim edildi. Suzdal seminarının nəticələri adı çəkilən sessiyanın qəbul etdiyi «Təşkilati ciinayətkarlıq» qətnaməsində öz əksini tapdı.

Beynəlxalq əməkdaşlığın uğurlu nümunəsi 21-23 noyabr 1994-cü ildə Neapol şəhərində Transmilli təşkilati cinayətkarlıq üzrə Ümumdünya konfransının keçirilməsi oldu, konfransın yekunu olaraq «Neapol siyasi bəyannaməsi və transmilli təşkilati cinayətkarlığa qarşı Qlobal fəaliyyət planı» qəbul edildi. Sənəddə cinayətkar təşkilatların üzvlərini düzgün şahid ifadələri vermək yolu ilə məhkəmə və hüquq-mühafizə orqanları ilə əməkdaşlığa təşviq edən tədbirlərin hazırlanması üzrə tövsiyələr ehtiva edilib (17-ci bənd). Bu məqsədlə milli səviyyədə şahidlərin və onların ailə üzvlərinin müdafiəsi üzrə proqramlar qəbul edilməli və realizə olunmalıdır (17, 42-ci bəndlər). Bahalı, lakin effektiv müdafiə tədbirlərindən biri kimi intiqam obyekti ola biləcək ailənin yaşayış yerinin dəyişdirilməsinin adı çəkilir.

Cinayətkarlığın qarşısının alınması və hüquq pozan şəxslərlə rəftar üzrə BMT-nin 29 aprel – 8 may 1995-ci ildə Qahirə şəhərində (Misir) IX Konqresinin ilkin gündəliyində həm məhkəmə araşdırması, həm də hüquq-mühafizə fəaliyyəti çərçivəsində cinayət qurbanlarının vəziyyətinə getdikcə daha çox diqqətin ayrılması tanındı. Onların ikinci dəfə qurbana çevrilmələri imkanını minimuma endirmək məqsədi ilə cinayət mühakimə icraatında xüsusi şərait yaradılır (şahid ifadələrinin videoyazıya alınması, məhkəmələrdə ayrıca gözləmə otaqlarının təşkili). Elə bu Konqresdəcə törədilmiş cinayətin şahidlərinin cinayət törədilmiş dövlətdə olmadığı təqdirdə sübutların yığılması və cinayət təqibinin həyata keçirilməsinin çətinliyi barədə narahatçılıq ifadə olunmuşdur **(33)**.

BMT-nin IX Konqresi, eləcə də zərəçəkənlərin çətin vəziyyəti haqqında qayğılarını da ifadə etdi və BMT-nin Cinayət və hakimiyyətdən sui-istifadə qurbanları üçün ədalət mühakiməsinin əsas prinsiplərini tam şəkildə istifadə və tətbiq etməyə israrla çağırdı. Proses iştirakçılarının müdafiəsi üzrə milli və beynəlxalq səviyyədə tədbirləri aktivləşdirmək təklif edildi. Cinayət mühakimə icraatında zərərçəkmiş qadınların təhlükəsizliyini təmin edən xüsusi proqramların hazırlanması zərurətinə, eləcə də yetkinlik yaşına çatmayanlara münasibətdə cinayət işləri üzrə videolentə yazılmış şahid ifadələrinin effektivliyinə xüsusi diqqət ayrılmışdı **(34)**. Öz işini yekunlaşdırarkən, Konqres dövlətləri bəyannamələrdən konkret fəaliyyətə keçməyə çağırdı.

17 iyun 1998-ci ildə Roma şəhərində BMT-nin himayəsi altında burada Beynəlxalq cinayət məhkəməsinin Roma statutunun qəbul olunduğu səlahiyyətli nümayəndələrin Diplomatik konfransı keçirildi. Bu sənəd ilə zərçəkənlərin və şahidlərin təhlükəsizliyinin, fiziki və psixoloji rifahının, ləyaqətinin və şəxsi həyatının təhlükəsizliyinin müdafiəsi üzrə lazımi tədbirlərin həyata keçirilməsi üçün məhkəmələrin öhdəliyi təsbit edilmişdir. Bu tədbirlər təqsirləndirilən şəxsin hüquqlarına zərər yetirməməli və ya onlarla bir araya sığmayan olmamalı, eləcə də ədalətli və qərəzsiz məhkəmə araşdırmasının aparılmasına xələl gətirməməlidir. Zərərçəkənlərin, şahidlərin və ya təqsirləndirilən şəxslərin müdafiəsi üçün məhkəmə baxışın hər hansı bir hissəsini qapalı keçirmək və ya elektron və digər xüsusi vasitələrlə sübutların təqdim edilməsinə icazə vermək hüququna malikdir. Əgər şəxsiyyət haqqında məlumatın açıqlanması istənilən şahid və ya onun ailə üzvləri üçün ciddi təhdidə səbəb ola bilərsə, onda prokuror bu cür informasiyanı təqdim etməyə bilər, əvəzində isə sadəcə onun xülasəsini təqdim edə bilər (68-ci maddə).

BMT-nin X Konqresində cinayət qurbanlarının dəstəklənməsi üzrə dövlətlərə milli, regional və beynəlxalq fəaliyyət planlarının qəbulunu tövsiyə edən «Cinayətkarlıq və ədalət mühakiməsi haqqında Vyana bəyannaməsi: XXI əsrin çağırışlarına cavablar» qəbul edildi. 2002-ci il dövlətlər tərəfindən hüquqtətbiqetmə praktikalarının nəzərdən keçirilməsi, zərərçəkənlər və şahidlərə kömək göstərilməsi üzrə xidmətin gücləndirilməsi, eləcə də şahidlərin müdafiəsi siyasətinin hazırlanması və həyata keçirilməsinə əlavə olaraq cinayət qurbanları üçün fondların yaradılması məsələsinin nəzərdən keçirilməsi üçün müddət kimi müəyyən edilmişdir **(35).**

Gözdən keçirdiyimiz sənədlərin analizi bizə belə nəticə çıxarmağa imkan verir ki, BMT-nin və onun himayəsi altında olan təşkilatların fəaliyyətində ümumi xarakter daşıyan cinayət mühakimə icraatı iştirakçılarının müdafiəsinin standart və prinsiplərinin hazırlanmasından təhlükəsizliyin təmininin və onun praktik fəaliyyətdə realizə mexanizmlərinin konkret tədbirlərinin yaradılmasına keçid tendensiyası görülməkdədir. Normayaradıcılıq fəaliyyətini davam etdirərək, BMT müasir dövrdə insan hüquqlarını daha dolğun təmin etmək və onun müdafiəsini daha effektiv etmək üçün yeni təşəbbüslər irəli sürür **(36).**

## ƏDƏBİYYAT


1. Резолюция № 827 (1993) по Югославии // Организация Обьединенных Наций. Совет Безопасности / Док. S/RES/ 25704.с. 39-51.
2. Резолюция № 955 (1994) по Руанде // Организация Обьединенных Наций. Совет Безопасности / Док. S/RES/ 955.
3. Bax: www.un.org/documents/ecosoc/res/1998/eres 1998-22 .htm
4. UN DOC E/CN. 4/RES/1989/64.
5. UN DOC E/CN. 4/RES/1996/15.
6. Doc. E/1993/INF/6
7. Принята и провозглашена резолюцией 217 А (III) Генеральной Ассамблеи ООН от 10.12.1948 г.
8. Марченко С.Л. Обеспечение безопасности участников уголовного процесса: Дис. Канд.юрид. наук. М.: 1994; Щерба С.П., Зайцев О.А. Охрана прав потерпевших и сведетелей по уголовным делам. М.: 1996; Шадрин В.С. Обеспечение прав личности при расследовании преступлениий. Волгоград: 1997.
9. Принята и провозглашена резолюцией 217 А (III) Генеральной Ассамблеи ООН от 10.12.1948 г.
10. Принят резолюцией 2200А (XXI) Генеральной Ассамблеи ООН от 16.12.1966 г.
11. Бойков А.Д. Судебная реформа: обретения и просчеты .. Гос. и право. 1994. №6. С.18.
12. Принята на ИВ Конгрессе ООН по предупреждению преступности и обращению с правонарушителями 5.09.1980 г.
13. Принята резолюцией 3452 (XXX) Генеральной Ассамблеи ООН от 9.12.1975 г.
14. Принята на 93-м пленарном заседании Генеральной Ассамблеи ООН 10.12.1984 г.
15. Принят Резолюцией 34/169 Генеральной Ассамблеи ООН от 17.12.1979 г.
16. Приняты на 15-м пленарном заседании Генеральной Ассамблеи ООН 24.05.1989 г.
17. Приняты на VIII Конгрессе ООН по предупреждению преступности и обращению с правонарушителями 29.11.1985 г.
18. Приняты на VIII Конгрессе ООН по предупреждению преступности и обращению с правонарушителями 7.09.1990 г.
19. Сборник стандартов норм Организации Обьединенных Нации в области предупреждения преступности и уголовного правосудия. Нью-Йорк: 1992. С. 242.
20. Принята на 96-м пленарном заседании Генеральной Ассамблеи ООН 29.11.1985 г.
21. Кобликов А. Нравственные проблемы правосудия // Сов. Юстиция. 1992. №21-22. С. 3.

22. Waller İ. Victims vs. Regina vs. Malefactor: justice for the next 100 years // Criminal Law in Action, Arnhem, 1987. P. 421-422; Bienкowsкa S. Deк-laracja ONZ o podstawowych zasadach sprawiedliwosci dla ofair przestepstw İ naduzye wladzy//Panstwo İ Prawo.1987, № 6.P. 95-96: Penders L. Guide-lines for Polize and Prosecutors^ An interest of Victims; A Matter of Justice. Utrecht, 1988.
23. Закон о жертвах правонарушений (Новая Зеландия, 1987 г.), Закон о правосудии для жертв преступлений (Канада, Манитоба, 1986г.), Закон о вынесении судебных санкций в отношении правонарушителей (Нидерланды, 1988 г.).
24. Поправка к закону об уголовном законодательстве Австрии (1987 г.).
25. E/AS.57/1988/3 для десятой сессии и E/AS.57/1990/3 для одиннадцатой сессии.
26. E/AS.57/1990/CRP.1.
27. Приняты на 68-м пленарном заседании Генеральной Ассамблеи ООН 14.12.1990 г.
28. A/CONF.144/İNF.2.
29. E/AC.57/1990/NGO/3.
30. Бутрос-Гали Б.Организация Обьединенных Нации и права человека. М.: 1995. С.11.
31. Международные нормы и правоприменительная практика в области прав и свобод человека. М.: 1993. С.13.
32. Практические меры борьбы с организованной преступностью // Вестник МВД Российской Федерации. 1992. № 5. С. 67.
33. Рекомендации в отношении четырех основных тем девятого Конгресса Организации Обьединенных Нации по предупреждению преступности и обращению с правонарушителями // Доклад девятого Конгресса ООН по предупреждению преступности и обращению с правонарушителями. Каир, 1995. С.6.
34. Стратегии в области предупреждения преступности, в частности , в отношении преступлений с приминением насилия, включая вопрос о потерпевших: оценка и новые перспективы// Доклад девятого Конгресса ООН по предупреждению преступности и обращению с правонарушителями. Каир: 1995. С. 13.
35. Лунев В.В. Десятый конгресс ООН по предупреждению преступности и обращению с правонарушителями, его место в истории конгрессов // Государство и право. 2000. № 9. С. 95-100.
36. Бутрос-Гали Б.Указ. соч. С.144.

## ООН И ПРАВО СПРАВЕДЛИВОГО СУДЕБНОГО РАЗБИРАТЕЛЬСТВА

**Т.Т.ВЕЛИЕВ**

**РЕЗЮМЕ**

Органы ООН в механизме реализации исследуемого права выполняют следующие функции: разрабатывают международно-правовые документы, закрепляющие и гарантирующие элементы справедливого судебного разбирательства; осуществляют контроль за выполнением государствами обязательств по обеспечению каждому лицу при предъявлении уголовного обвинения или при определении гражданских прав и обязанностей права на справедливое судебное разбирательство.

## UN AND RIGHT TU JUST JUDL INVESTIGATION

**T.T.VALIEV**

**SUMMARY**

In un bidies the megthods of realization law exploration consist of different functions such as: To prepare the document which fortify of court of justice elements, to ensure court of justice in bring a charge.